# BİLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ İQTİSADİ VƏ SOSİAL ŞURASININ STATİSTİKA KOMİSSİYASI

## RƏSMİ STATİSTİKANIN ƏSAS PRİNSİPLƏRİ

Statistika Komissiyası 11-15 aprel 1994-cü il tarixində öz xüsusi sessiyasında Rəsmi statistikanın aşağıdakı əsas prinsiplərini qəbul etdi:

"*Statistika Komissiyası,*

rəsmi statistika məlumatlarının iqtisadiyyat, demoqrafiya, sosial və ekologiya sahələrində davamlı inkişafı üçün, həmçinin dünya dövlətləri və xalqları arasında qarşılıqlı tanışlıq və ticarət üçün zəruri əsas olduğunu *nəzərə alaraq,*

rəsmi statistika məlumatlarına ictimaiyyətin etibar səviyyəsinin nəzərəçarpacaq dərəcədə özünü dərk etməyə və öz üzvlərinin hüquqlarına hörmət etməyə çalışan hər hansı demokratik cəmiyyətin əsasını təşkil edən başlıca dəyər və prinsiplərə hörmət edilməsindən asılı olduğunu *nəzərə alaraq,*

rəsmi statistikanın keyfiyyəti, eləcə də hökumətə, iqtisadi dairələrə və ictimaiyyətə təqdim olunan məlumatların keyfiyyəti nəzərəçarpacaq dərəcədə zəruri statistik məcmuələrin hazırlanması üçün tələb olunan lazımi və etibarlı məlumatları təqdim edən vətəndaşlar, müəssisələr və digər respondentlərlə əməkdaşlıqdan və istifadəçilərin tələbatlarının ödənilməsi məqsədilə statistik məlumatların istifadəçiləri və istehsalçıları arasındakı əməkdaşlıqdan asılı olduğunu *nəzərə alaraq,*

ölkələr arasında müqayisələri aparmağa imkan verən standartlar və konsepsiyaların işlənib hazırlanması üzrə statistika məsələləri ilə məşğul olan hökumət və qeyri-hökumət təşkilatlarının səylərini *yada salaraq,*

həmçinin Beynəlxalq Statistika İnstitutunun peşəkarlıq etikası haqqında Deklarasiyasına *istinad edərək,*

Avropa İqtisadi Komissiyası tərəfindən 15 aprel 1992-ci il tarixində qəbul edilmiş C(47) qətnaməsinin ümumi əhəmiyyətə malik olduğu *fikirini bildirərək,*

əsas prinsiplərə baxılması üçün ASOİSK-nın (Asiya və Sakit Okean ölkələri üçün İqtisadi və Sosial Komissiyasının) statistika üzrə Komitəsi tərəfindən təyin edilən ekspert-statistiklərin işçi qrupunun 1993-cü ilin noyabr ayında Banqkoqda keçirilmiş öz səkkizinci sessiyasında prinsip etibarı ilə AİK-in (Avropa İqtisadi Komissiyasının) variantı ilə razılaşdığını və bu prinsiplərin bütün ölkələrdə tətbiqinin mümkünlüyünü *qeyd edərək,*

Afrika planlaşdırıcılarının, statistiklərinin və demoqraflarının birləşmiş konfransı, özünün 1994-cü ilin mart ayında Əddis-Əbəbədə keçirilmiş səkkizinci sessiyasında rəsmi statistikanın əsas prinsiplərinin universal əhəmiyyətə malik olduğunu hesab etdiyini *həmçinin qeyd edərək,*

rəsmi statistikanın hazırkı prinsiplərini *qəbul edir:*"

**1-ci prinsip: Əhəmiyyətlilik, obyektivlik və əlverişlilik**

"Rəsmi statistika iqtisadi, demoqrafik, sosial və ekoloji vəziyyət haqqında məlumatlarla hökuməti, iqtisadi dairələri və ictimaiyyəti təmin etməklə, demokratik cəmiyyətin informasiya sisteminin zəruri elementi hesab edilir. Bu məqsədlə, praktiki dəyərə malik olan rəsmi statistika məlumatları, ictimai məlumatlara vətəndaşların hüquqlarına hörməti təmin etmək üçün rəsmi statistika orqanları tərəfindən obyektiv əsasda hazırlanır və yayılır."

**2-ci prinsip: Peşəkar standartlar və etika**

"Rəsmi statistikaya etibarı qoruyub saxlamaq məqsədilə elmi prinsipləri və peşəkarlıq etikasını nəzərə almaqla, ciddi peşəkarlıq mülahizələrinə uyğun olaraq, statistika orqanları statistik məlumatların toplanması, işlənməsi, saxlanması və təqdim edilməsinin metod və qaydaları barədə qərarlar qəbul etməlidirlər."

**3-cü prinsip: Hesabat verimliliyi və uyğunluq (transparentnost)**

"Məlumatların düzgün şərhini asanlaşdırmaq üçün statistika orqanları məlumatları statistika sahəsində mənbələr, metodlar və qaydalarla əlaqəli elmi standartlara uyğun təqdim etməlidirlər."

**4-cü prinsip: Yanlış istifadənin qarşısının alınması**

“Statistika orqanları statistik məlumatların səhv izahını və ya yanlış istifadəsini şərh etmək hüququna malikdirlər.”

**5-ci prinsip: Rəsmi statistikanın mənbələri**

“Statistik məqsədlər üçün məlumatlar istər statistik müayinə, itərsə də inzibati hesabatlar olmasına baxmayaraq, bütün növ mənbələrdən alına bilər. Statistika orqanları mənbələri keyfiyyəti, vaxtında olmanı, xərcləri və respondentlərə düşən yükü nəzərə almaqla seçməlidirlər.”

**6-ci prinsip: Konfidensiallıq**

“Fiziki və ya hüquqi şəxslərə aid olmasından asılı olmayaraq, statistik məlumatların hazırlanması üçün statistika orqanları tərəfindən toplanan fərdi məlumatlar ciddi şəkildə konfidensial xarakter daşımalıdır və yalnız statistik məqsədlər üçün istifadə edilməlidir.”

**7-ci prinsip: Qanunvericilik**

“Statistika sisteminin fəaliyyət göstərdiyi qanunlar, normalar və tədbirlər dairəsi hamıya bildirilməlidir (açıqlanmalıdır).”

**8-ci prinsip: Milli əlaqələndirmə**

“Statistika sistemində uyğunluq və səmərəliliyin təmin edilməsi üçün ölkələr səviyyəsində statistika fəaliyyətinin əlaqələndirilməsinin həyata keçirilməsi vacibdir.”

**9-cu prinsip: Beynəlxalq standartlardan istifadə edilməsi**

“Hər bir ölkənin statistika idarəsi tərəfindən beynəlxalq konsepsiyalardan, təsnifatlardan və metodlardan istifadə edilməsi bütün rəsmi səviyyələrdə statistika sistemlərinin uyğunluq və səmərəliliyinin təmin olunmasına imkan yaradır.”

**10-cu prinsip: Beynəlxalq əməkdaşlıq**

“Statistika sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq bütün ölkələrdə rəsmi statistika sistemlərinin təkmilləşdirilməsinə yardım edir.”

# BEYNƏLXALQ STATİSTİKA FƏALİYYƏTİNİN ƏSAS PRİNSİPLƏRİ

Sabit iqtisadi, ekoloji və sosial inkişaf üçün statistikanın mühüm əhəmiyyətə malik olduğunu və cəmiyyətin rəsmi statistikaya etibarının elmi metodlardan istifadə edən və bütün rəsmi statistika məlumatlarına bərabər girişə malik statistiklərin peşəkar müstəqilliyinə və qərəzsizliyinə əsaslandığını qəbul edərək statistika xidmətlərinin rəhbərləri və BMT sistemi orqanlarının statistik fəaliyyətinin əlaqələndiriciləri və onlarla əlaqəli təşkilatlar aşağıdakı prinsiplərin tətbiqinin beynəlxalq statistika sisteminin fəaliyyətini təmin edəcəyinə razılaşdılar. Bunu ifadə etməklə, onlar statistika fəaliyyətinin əlaqələndirilməsi üzrə Komitə tərəfindən 14 sentyabr 2005-ci ildə bu prinsiplərin qəbul edilməsini təsdiq edirlər; bununla yanaşı, onlar BMT-nin Satitistika Komissiyası tərəfindən 11-15 aprel 1994-cü il tarixli xüsusi sessiyasında qəbul edilmiş Rəsmi statistikanın əsas prinsiplərinə, həmçinin 1-5 mart 1999-cu il tarixində BMT-nin Statistika Komissiyasının 30-cu sessiyasında statistika sahəsində texniki əməkdaşlığın qabaqcıl təcrübəsi haqqında təsdiq edilmiş Bəyanatına əsaslanırlar.

**1) Hamı üçün açıq olan yüksək keyfiyyətli beynəlxalq statistik məlumatlar qlobal informasiya sisteminin əsas elementi hesab edilir.**

Qabaqcıl təcrübəyə daxildir:

- məlumatlara olan tələbatlarının təmin edilməsinə əmin olmaq üçün müvafiq təşkilatın həm daxilində, həm də xaricində statistik məlumatların əsas istifadəçiləri ilə müntəzəm məsləhətləşmələrin keçirilməsi;
- statistik proqramların uyğunluğunun təmin edilməsi məqsədilə, onların dövri şərhi;
- qərəzsizlik prinsiplərinə əsaslanan beynəlxalq statistik məlumatların işlənib hazırlanması və yayılması;
- məlumatlara bütün istifadəçilərin bərabər girişinin təmin edilməsi;
- əsas statistik məlumatlara ictimaiyyətin sərbəst girişinin təmin edilməsi.

**2) Beynəlxalq statistik məlumatların etibarlı olmasına kömək etmək üçün, onların işlənib hazırlanması qərəzsizlik prinsipinə əsasən həyata keçirilməlidir və ciddi şəkildə yüksək peşəkar standartlara əsaslanmalıdır.**

Qabaqcıl təcrübəyə daxildir:

- metodologiya, terminologiya və məlumatların təqdim edilməsi üzrə qərarların qəbul edilməsində peşəkar yanaşmadan istifadə edilməsi;
- davranışın peşəkar etikasının işlənib hazırlanması və istifadə edilməsi;
- bir tərəfdən statistik nəşrlərdəki statistik və təhlili izahlara və digər tərəfdən isə statistikanın hər hansı siyasətə və təbliğata aid olan şərhlərinə dəqiq hədd qoyulması.

**3) İctimaiyyət təşkilatların statistik fəaliyyəti həyata keçirmək səlahiyyətləri barədə məlumatlı olmaq hüququna malikdir.**

Qabaqcıl təcrübəyə daxildir:

- statistik işlər proqramına dair qəbul edilən qərarlara ictimaiyyətin geniş girişi;
- statistik müşavirələrin sənədlərinə və hesabatlarına ictimaiyyətin geniş girişi.

**4) Beynəlxalq statistik məlumatların işlənib hazırlanması üçün tətbiq edilən konsepsiyalar, təriflər (anlayışlar), təsnifatlar, mənbələr, metodlar və qaydalar elə seçilirlər ki, onlar peşəkar elmi standartlara cavab versinlər və istifadəçilər üçün başa düşülə bilinən olsun.**

Qabaqcıl təcrübəyə daxildir:

- statistik məlumatların metodologiyasının və keyfiyyətinin daima təkmilləşdirilməsi;
- heyətin peşəkar səviyyəsinin, onların ixtisasının yüksəldilməsinın, təhlili işlərə cəlb edilməsinin, elmi məqalələrinin nəşrinin və seminar və konfranslarda iştirakının təmin edilməsi;
- konsepsiyaların, təriflərin (anlayışların) və təsnifatların və məlumatların toplanması və işlənməsi qaydalarının şərhini əks etdirən sənədlərin hazırlanması, həmçinin məlumatların keyfiyyətinin qiymətləndirilməsi və bu sənədlərlə geniş ictimaiyyətin tanış etdirilməsi;
- ölkələrdən alınan məlumatların redaktə (təshih) edilməsi metodları haqqında məlumatlar da daxil olmaqla, məlumatların toplanması,

işlənməsi və yayılması qaydalarının şərhini əks etdirən sənədlərin hazırlanması;
- beynəlxalq statistik məlumatların yayılması zamanı onların mənbələrinə istinadlar və digər təşkilatlar tərəfindən toplanan məlumatların təkrar istifadə edilməsi zamanı qeydlərin razılaşdırılmış standartlarından istifadəsi;
- rəsmi razılaşdırılmış standartlara geniş girişin təmin edilməsi.

**5) Məlumatların toplanması metodları və mənbələri elə seçilir ki, məlumatların vaxtlı-vaxtında olması və keyfiyyətinin digər aspektləri, onların toplanmasına çəkilən xərclərin səmərəliliyi təmin edilsin və respondentlərə düşən yük minimuma endirilsin.**

Qabaqcıl təcrübəyə daxildir:

- ölkələrdən məlumatların alınmasının təmin edilməsi;
- beynəlxalq statistik məlumatların vaxtında olmasının yaxşılaşdırılması üzrə müntəzəm işin aparılması;
- respondentlərə düşən yükün minimuma endirilməsi məqsədilə statistik proqramların vaxtaşırı icmalı;
- toplanmış məlumatların digər təşkilatlara təqdim edilməsi və münasib olduqda məlumatların birgə toplanması;
- hansı məlumatların çatışmadığı və hansı məlumatların bir-birini təkrarladığına dair aydın təsəvvürə imkan yaradan, məlumatların toplanması planları da daxil olmaqla statistik proqramların kompleks təqdimatının zənginləşdirilməsi;
- məlumatların toplanmasında milli statistika xidmətlərinin və rəsmi statistika ilə məşğul olan digər milli təşkilatların iştirakının zəruriliyinin, həmçinin statistik məlumatların toplanmasında ölkələr tərəfindən rəsmi statistikanın əsas prinsiplərinin tətbiqinin təbliğatının təmin edilməsi.

**6) Konfidensiallığın milli tələblərinə düşən, fiziki və ya hüquqi şəxslər və ya az saylı vahidlər haqqında toplanan fərdi məlumatlar son dərəcədə konfidensial saxlanılmalıdır və yalnız statistik məqsədlər və ya qanunvericiliklə müəyyən edilmiş məqsədlər üçün istifadə edilməlidir.**

Qabaqcıl təcrübəyə daxildir:

- fiziki şəxslər, ev təsərrüfatları, müəssisələr və ya digər fərdi respondentlər haqqında məlumatların birbaşa və ya dolayısı ilə açılmasına yol verməmək məqsədilə tədbirlərin həyata keçirilməsi;
- konfidensiallığın tələblərinə riayət edən, vicdanlı tədqiqatçılara sonrakı təhlil üçün anonim mikroməlumatların verilməsi metodlarını və qaydalarını əks etdirən sənədlərin işlənib hazırlanması.

**7) Statistik məlumatların yanlış şərh edilməsi və düzgün istifadə olunmaması dərhal müvafiq qaydada qeyd edilməlidir.**

Qabaqcıl təcrübəyə daxildir:

- statistik məlumatların yanlış şərh edilməsi və düzgün istifadə olunmamasına tez reaksiya verilməsi;
- istifadəçilərin əhəmiyyətli qrupu üçün tədris materiallarının hazırlanması yolu ilə statistik məlumatlardan istifadə edilməsinin yaxşılaşdırılması.

**8) Milli və beynəlxalq statistika üçün standartlar aydın peşəkar meyarlar əsasında işlənib hazırlanmalıdır və praktiki olaraq yararlı və həyata keçirilə bilən olmalıdır.**

Qabaqcıl təcrübəyə daxildir:

- milli statistika xidmətlərinin və statistika ilə məşğul olan digər milli təşkilatların metodlar, standartlar və qaydaların işlənib hazırlanması da daxil olmaqla, beynəlxalq statistika proqramlarının işlənib hazırlanmasına müntəzəm cəlb olunması;
- ölkələrin maraqları ilə mübahisəyə səbəb olmayan və bundan uzaq olan standartların işlənib hazırlanmasının təmin edilməsi;
- beynəlxalq standartların tətbiq edilməsi üzrə ölkələr üçün tövsiyələrin işlənib hazırlanması;
- razılaşdırılmış standartların tətbiq edilməsinin monitorinqinin təmin edilməsi.

**9) Beynəlxalq statistika proqramlarının əlaqələndirilməsi beynəlxalq statistikanın keyfiyyətinin yaxşılaşdırılması, razılaşdırılması və idarə edilməsi, həmçinin işlərin təkrarlanmasının aradan qaldırılması üçün zəruri şərtlərdən biri hesab edilir.**

Qabaqcıl təcrübəyə daxildir:

- statistika proqramlarının həyata keçirilməsinə, o cümlədən təşkilatın öz statistika işinin əlaqələndirilməsinə və onun beynəlxalq statistika müşavirələrində təmsil edilməsinə cavabdeh olan bir və ya daha çox statistika bölməsinin təyin edilməsi;
- beynəlxalq statistika müşavirələrində iştirak və zəruri hallarda ikitərəfli və ya çoxtərəfli məsləhətləşmələrin keçirilməsi;
- ümumi konsepsiyalar, təsnifatlar, standartlar və metodlara dair razılaşmaların müəyyənləşdirilməsi üzrə müntəzəm işlərin aparılması;
- mühüm göstəricilərin hər bir qrupu üzrə daha təmsiledici məlumat sıralarının müəyyən olunmasına dair razılaşmaların əldə edilməsi üzrə müntəzəm işlərin aparılması;
- səylərin təkrarlanmasının aradan qaldırılması və lazımi nəticənin təmin edilməsi məqsədilə, donorlar və milli statistika sisteminin müxtəlif təşkilatları ilə ölkələrin texniki əməkdaşlığı çərçivəsində əlaqələndirmənin həyata keçirilməsi.

**10) Statistika sahəsində ikitərəfli və çoxtərəfli əməkdaşlıq statistiklərin peşəkar inkişafına və təşkilatlarda və ölkələrdə statistikanın təkmilləşməsinə səbəb olur.**

Qabaqcıl təcrübəyə daxildir:

- milli və regional statistika sistemlərinin gələcək inkişafına yardım göstərən beynəlxalq təşkilatlar, ölkələr və regionlar arasında əməkdaşlığın və biliklər mübadiləsinin həyata keçirilməsi;
- əməkdaşlıq layihələrinin istifadəçilərin tələbatlarına istiqamətləndirilməsi, bütün maraqlı tərəflərin əməkdaşlıqda tamhüquqlu iştirakının təmin edilməsi, yerli şəraitin və statistikanın inkişaf səviyyəsinin nəzərə alınması;
- milli statistika xidmətlərinə - məlumatları qəbul edənlərə və hökumətlərə təşəbbüs göstərmək imkanının verilməsi;
- rəsmi statistikanın əsas prinsiplərinin ölkələrdə tətbiq edilməsinin təbliğ olunması;
- əməkdaşlıq layihələrinin rəsmi statistikanın milli inkişafının tarazlaşdırılmış çərçivələrinə daxil edilməsi.

# AVROPA İTTİFAQINA ÜZV ÖLKƏLƏRİN VƏ İTTİFAQIN STATİSTİKA ORQANLARI ÜÇÜN AVROPA STATİSTİKASININ NORMALAR MƏCƏLLƏSİ

Avropa İttifaqına üzv ölkələrin və İttifaqın Statistika orqanlarının müstəqilliyi, bütövlüyü və hesabat verimliyi haqqında. 24 fevral 2005-ci ildə statistik poqram komitəsinin iclasında qəbul edilmiş və komissiyanın 25 may 2005-ci il tarixli tövsiyəsində dərc olunmuşdur.

Normalar Məcəlləsinin əsası 15 prinsipdən ibarətdir. Avropa İttifaqının idarəetmə və statistika orqanları öhdələrinə götürürlər ki, idarəçiliyi, statistik prosesləri və yekun statistik məlumatları əhatə edən, bu Məcəllədə təsbit edilmiş prinsiplərə riayət etsinlər. 15 prinsipin hər biri üzrə qabaqcıl təcrübənin göstəricilər (indikatorlar) toplusu Məcəllənin yerinə yetirilməsinin yoxlanılması üçün əsas hesab edilir.

**İdarəçilk sahəsi**

Avropa statistikasını istehsal edən və yayan statistika orqanlarının işinin səmərəliliyinə və məlumatlarının doğruluğuna peşəkar müstəqillik, məlumatların toplanması üçün səlahiyyətlərin mövcudluğu, kifayət qədər ehtiyatların mövcudluğu, keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik, statistik konfidensiallıq, qərəzsizlik və obyektivlik kimi idarəçilik və təşkilati amillər əhəmiyyətli dərəcədə təsir göstərir.

## 1-ci PRİNSİP: PEŞƏKAR MÜSTƏQİLLİK

*Statistika orqanlarının digər siyasi, nizamlayıcı və inzibati orqan və idarələrdən, həmçinin özəl sektorun operatorlarından peşəkar müstəqilliyi (asılı olmaması) Avropa statistikasının doğruluğunu təmin edir.*

Göstəricilər:

- Rəsmi statistikanın istehsalı və yayılmasında statistika orqanlarının siyasi və digər kənar müdaxilələrdən müstəqilliyi qanunda təsbit edilmişdir.
- Siyasi orqanların və inzibati dövlət təşkilatlarının rəhbərliyinə çıxışa malik olmaq üçün statistika orqanının rəhbəri kifayət qədər yüksək

iyerarxiya statusuna malik olmalıdır. O, ən yüksək peşəkar ixtisaslı şəxs olmalıdır.
- Statistika orqanının rəhbəri və həmçinin imkan daxilində ona tabe olan statistika təşkilatlarının rəhbərləri Avropa statistikasının istehsalı və yayılmasının müstəqilliyinə cavabdehlik daşıyırlar.
- Bu və ya digər statistik metodların, standartların və üsulların tətbiqi, statistik relizlərin məzmunu və buraxılışı qrafiki barəsində məsuliyyətli qərarlar ancaq statistika orqanının rəhbəri tərəfindən və mümkün olduğu təqdirdə, ona tabe olan statistika təşkilatlarının rəhbərləri tərəfindən qəbul edilir.
- Statistik iş proqramları dərc edilir, onların yerinə yetirilməsinin gedişi dövri hesabatlarda işıqlandırılır.
- Statistik relizlər dəqiq çərçivələrlə məhdudlaşdırılır və siyasi kursun və ya həyata keçirilən siyasətin qiymətləndirilməsini əks etdirmir.
- Statistika orqanı statistik buraxılışları, o cümlədən tənqid və rəsmi statistikadan səhv istifadə edilməsini mümkün qədər açıq şərh edir.

## 2-ci PRİNSİP: MƏLUMATLARIN TOPLANMASI ÜZRƏ SƏLAHİYYƏT

*Statistika orqanları Avropa statistikasının ehtiyacları üçün məlumatların toplanması üzrə aydın qanuni səlahiyyətlərə malik olmalıdırlar. Qanun statistika orqanlarının tələblərinə uyğun olaraq inzibati təşkilatları, müəssisələri, ev təsərrüfatlarını, vətəndaşları Avropa statistikasının ehtiyacları üçün gərəkli olan öz məlumatlarına girişi təmin etməyə və ya məlumatları bildirməyə məcbur edə bilər.*

Göstəricilər:
- Rəsmi statistika məlumatlarının istehsalı və yayılması üçün məlumatların toplanması üzrə səlahiyyətlər qanunda qeyd edilmişdir.
- Milli qanunvericilik statistika orqanına statistik ehtiyaclar üçün inzibati məlumat mənbələrindən istifadə etməyə icazə verir.
- Statistika orqanları normativ aktlar əsasında respondentlərin statistik sorğularda məcburi iştirakını tələb edə bilərlər.

## 3-cü PRİNSİP: EHTİYATLARIN KİFAYƏTLİLİYİ

*Statistika orqanlarının sərəncamında olan ehtiyatlar Avropa statistikasının tələblərini ödəmək üçün kifayət qədər olmalıdır.*

Göstəricilər:

- Avropa statistikasının mövcud ehtiyaclarını ödəmək üçün kifayət qədər kəmiyyət və keyfiyyət baxımından insan, maliyyə və kompüter ehtiyatları vardır.
- Avropa statistikasının əhatəsi, təfsilatı və xərcləri onun ehtiyacları ilə uyğundur.
- Tələb edilən xərclərə uyğun olaraq yeni Avropa statistika məlumatlarının istehsalının qiymətləndirilməsi qaydaları və sifarişlərin əsaslandırılması müəyyənləşdirilmişdir.
- Bütün Avropa statistikası barəsində cari tələblərin qiymətləndirilməsi qaydası elə müəyyən edilmişdir ki, zəruri hallarda ehtiyatları azad etmək üçün müəyyən məlumatların istehsalını dayandırmaq və ya ixtisara salmaq mümkün olsun.

**4-cü PRİNSİP: KEYFİYYƏTİN TƏMİN EDİLMƏSİ ÜZRƏ ÖHDƏÇİLİK**

*Avropa statistika sisteminin (ASS) bütün üzvləri, Avropa statistika sisteminin keyfiyyət haqqında Bəyannaməsində təsbit edilmiş prinsiplərə uyğun olaraq, işləmək və əməkdaşlıq etməyi öhdələrinə götürürlər.*

Göstəricilər:
- Statistik məhsulların keyfiyyətinin ASS-in keyfiyyət meyarlarına uyğun gəlməsi müntəzəm olaraq yoxlanılır.
- Statistik məlumatların toplanması, işlənməsi və yayılmasının keyfiyyəti üzərində nəzarət üsulları işlənib hazırlanmışdır.
- Keyfiyyət üzrə güzəştlər, cari və gələcək statistik müayinələrin planlaşdırılmasının idarə edilməsi tədbirləri də daxil olmaqla, keyfiyyət göstəriciləri ilə iş üsulları işlənib hazırlanmışdır.
- Keyfiyyət normativləri sənədləşdirilmişdir, işçilər yaxşı öyrədilmişdir. Normativlər yazılı şəkildə şərh olunmuşdur və cəmiyyətin mülkiyyətinə çevrilmişdir.
- İmkan daxilində, kənardan ekspertləri cəlb etməklə, əsas çıxış statistik məlumatlarının əsaslı yoxlanması müntəzəm olaraq həyata keçirilir.

**5-ci PRİNSİP: STATİSTİK KONFİDENSİALLIQ**

*Respondentlərin (ev təsərrüfatlarının, müəssisələrin, idarələrin və digərlərinin) şəxsi həyatlarının toxunulmazlığı üçün, onlardan alınan məlumatların konfidensiallığı və onların yalnız statistik məqsədlər üçün istifadə edilməsinə bütövlükdə zəmanət verilməlidir.*

Göstəricilər:

- Statistik məlumatların konfidensallığına qanunla zəmanət verilir.
- Statistika orqanının işçiləri işə qəbul olunarkən sirrin açılmamasına dair iltizam verir.
- Statistik məlumatların konfidensiallığının qəsdən pozulmasına görə istənilən halda ciddi cəza təyin edilir.
- Statistik məlumatların istehsalı və yayılması prosesində, onların konfidensiallığının qorunması üzrə təlimatlar və normativlər işlənib hazırlanmışdır. Onlar yazılı şəkildə şərh olunmuş və ictimaiyyətə çatdırılmışdır.
- Statistik məlumat bazalarının təhlükəsizliyi və bütövlüyü fiziki və texniki vasitələrin köməyi ilə qorunur.
- Tədqiqat məqsədləri üçün statistik mikro-məlumatlara giriş almaq üçün kənar istifadəçilər ciddi protokollara riayət edirlər.

**6-cı PRİNSİP: QƏRƏZSİZLİK VƏ OBYEKTİVLİK**

*Statistika orqanları tərəfindən Avropa statistikasının istehsalı və yayılması elmi mülahizələrin müstəqilliyinə hörmət, obyektivlik, peşəkarlıq, şəffaflıq prinsipinə riayət etmək və bütün istifadəçilərə eyni münasibət ruhunda həyata keçirilir.*

Göstəricilər:

- Statistik məlumatların işlənib hazırlanması statistikanın tələbləri ilə şərtləşdirilmiş obyektiv əsasda yerinə yetirilir.
- Mənbələrin və statistik üsulların seçimi statistikanın tələbləri ilə şərtləndirilmişdir.
- Rəsmi statistik nəşrlərdə aşkar edilən səhvlər dərhal düzəldilir və düzəlişlər dərc edilir.
- Statistika orqanının iş metodları və qaydaları barəsində məlumatlara giriş şəxslərin qeyri-məhdud dairəsinə açıqdır.
- Statistik relizlərin tarixi və vaxtı barəsində əvvəlcədən məlumat verilir.
- Bütün istifadəçilər statistik relizlərin məlumatlarına eyni vaxtda girişə malikdirlər. Əsasən, vaxtından əvvəl giriş hüququna malik olan kənar istifadəçilərin dairəsi məhdudlaşdırılır, nəzarət olunur və elan edilir. Məlumatların sızması hallarında ədalətliliyə zəmanət vermək məqsədilə vaxtından əvvəl giriş şərtlərinə yenidən baxılır.
- Statistik relizlərdə və mətbuat-konfranslarındakı bəyanatlar obyektiv və şəxssiz xarakterə malikdir.

**Statistik proseslər**

Rəsmi statistikanın təşkili, toplanması, işlənməsi və yayılması proseslərində statistika orqanları Avropa və digər beynəlxalq standartlara, normativlərə və qabaqcıl təcrübənin prinsiplərinə bütövlükdə riayət etməyə borcludurlar. Statistik məlumatlara inam idarəetmənin və səmərəliliyin məntiqə uyğunluğu sayəsində artır. Əsas baxışlar metodologiyanın əsaslılığı, statistik üsulların əsaslandırılması, respondentlərə düşən yükün azaldılması və qənaətçillik hesab edilir.

**7-ci PRİNSİP: METODOLOGİYANIN ƏSASLILIĞI**

*Statistikanın keyfiyyəti əsaslı metodologiya ilə təmin edilir. Bunun üçün müvafiq vasitələr, üsullar və təcrübə lazımdır.*

Göstəricilər:

- Statistika orqanı tərəfindən tətbiq edilən bütün metodlar Avropa və digər beynəlxalq standartlara, normativlərə və qabaqcıl təcrübənin prinsiplərinə uyğundur.
- Statistika orqanının bütöv strukturunda standart anlayışların, təriflərin və təsnifatların davamlı tətbiqini təmin edən qaydalar fəaliyyət göstərir.
- Biznes registrin məlumatları və demoqrafik müayinələr üçün məlumat bazaları müntəzəm olaraq yoxlanılır və zəruri hallarda onların yüksək keyfiyyətini təmin etmək məqsədilə dəqiqləşdirilir.
- Milli təsnifat sistemləri və iqtisadiyyatın sektorlarına bölgüsü müvafiq Avropa sistemlərinə dəqiqliklə uyğun gəlir.
- Ştatlara müvafiq ali təhsil müəssisələrinin məzunları götürülürlər.
- Qabaqcıl təcrübəni mənimsəmək və biliklərini dərinləşdirmək üçün əməkdaşlar beynəlxalq təlim kurslarında, konfranslarda iştirak edirlər və beynəlxalq səviyyədə öz həmkarları ilə ünsiyyət qururlar.
- Metodologiyanın təkmilləşdirilməsi üçün elmi cəmiyyətlərlə əməkdaşlıq təşkil edilir; istifadə edilən metodların keyfiyyətinin və səmərəliliyinin qiymətləndirilməsi, mümkün olduqda, istifadə edilən vasitələrin təkmilləşdirilməsi üzrə tövsiyələr verən müstəqil və kənar ekspertlər tərəfindən aparılır.

**8-ci PRİNSİP: STATİSTİK QAYDALARIN ƏSASLANDIRILMASI**

*Statistik məlumatların keyfiyyətinin əsasında, tətbiqi məlumatların toplanmasından başlayan və onların düzgünlüyünün yoxlanması ilə başa çatan əsaslandırılmış statistik qaydalar durmalıdır.*

Göstəricilər:

- Avropa statistik məlumatları inzibati məlumatlara, inzibati məqsədlər üçün istifadə edilən təriflərə və anlayışlara əsaslanarsa, onda əhəmiyyətli dərəcədə statistikada istifadə edilən tərif və anlayışlara yaxınlaşmalıdır.
- Statistik müayinələr keçirilərkən, məlumatların toplanmasından əvvəl sorğu anketlərinin müntəzəm olaraq yoxlanması həyata keçirilir.
- Müayinələrin strukturu, seçmənin tərtib edilməsi və qiymətləndirilməsi sanballı əsaslara malikdir və zəruri olduqda, mütəmadi olaraq yenidən baxılır, düzəldilir və aktuallaşdırılır.
- Yerlərdə operativ işlərin, məlumatların daxil edilməsi və kodlaşdırılasının daimi monitorinq rejimi fəaliyyət göstərir, lazım olduqda düzəlişlər aparılır.
- Məlumatların təshihi və dəyişdirilməsi üçün istifadə edilən müvafiq kompüter sistemləri mövcuddur; onlar müntəzəm olaraq yoxlanılır, lazım olduqda təshih edilir və aktuallaşdırılır.
- Səhvlərin və yanlışlıqların düzəlişi müəyyən edilmiş standartlara və şəffaf qaydalara uyğun olaraq həyata keçirilir.

## 9-cu PRİNSİP: RESPONDENTLƏRƏ DÜŞƏN YÜKÜN AZALDILMASI

*Məlumatların təqdim olunması üzrə yük istifadəçilərin tələbatlarına proporsional olmalıdır və respondentlər üçün həddən artıq yüksək olmamalıdır. Statistika orqanı məlumatların təqdim edilməsi üzrə yükün monitorinqini həyata keçirir və onun tədricən azaldılması üzrə məqsədlər nəzərdə tutur.*

Göstəricilər:

- Avropa statistikasının sorğularının həcm və təfsilatı tam lazımlı məlumatların əldə olunması ilə məhdudlaşdırılmışdır.
- Seçmənin tərtib edilməsinin müvafiq üsullarının köməyi ilə məlumatların təqdim edilməsi üzrə yük sorğu edilənlərin mümkün qədər çox sayına bölüşdürülür.
- Müəssisələrdən sorğu edilən məlumatları asanlıqla onların mühasibat hesabatlarından əldə etmək olar. Belə məlumatların təqdim edilməsini sadələşdirmək üçün imkan daxilində qədər məlumatların elektron ötürülməsi vasitələrindən istifadə edilir.

- Dəqiq ətraflı məlumatların əldə olunması çətin olduğu hallarda qiymətləndirmənin və ya yaxınlaşmanın ən yaxşı metodlarından istifadə olunur.
- Məlumat sorğularının təkrarlanmasına yol verməmək üçün mümkün qədər, inzibati mənbələrdən daha çox istifadə edilir.
- Müayinələrin sayının azaldılması məqsədilə statistika orqanları daxilində məlumat mübadiləsi qəbul edilmiş hal hesab edilir.

**10-cu PRİNSİP: QƏNAİTÇİLLİK**
*Ehtiyatlardan istifadə edilməsi səmərəli olmalıdır.*

Göstəricilər:
- Statistika orqanı tərəfindən mövcud ehtiyatlardan istifadə edilməsinə həm daxili tədbirlərin, həm də kənardan müstəqil vasitələrin köməyilə nəzarət olunur.
- Standart dəyişməz (təkrarlanan) əməliyyatlar (məsələn, məlumatların daxil edilməsi, kodlaşdırılması, düzgünlüyünün yoxlanması) maksimal dərəcədə avtomatlaşdırılır.
- Məlumatların toplanması, işlənməsi və yayılması sahəsində informasiya və kommunikasiya texnologiyalarının məhsuldar potensialı daima optimallaşdırılır.
- Baha başa gələn birbaşa müayinələrə yol verməmək üçün məlumatların inzibati registrlərinin statistik potensialından maksimum istifadəsinə yönəldilmiş fəal iş aparılır.

**Çıxış statistik məlumatları**

İstifadəçilərin sərəncamına verilən statistik məlumatlar onların tələbatlarına cavab verməlidir. Statistik məlumatlar Avropa keyfiyyət standartlarına uyğundur və Avropa idarələrinin, hökumətlərinin, tədqiqat idarələrinin, istehsal birliklərinin və ümumilikdə, bütün əhalinin ehtiyaclarına xidmət edir. Buna görə də statistik məlumatların nə dərəcədə aktual, dəqiq və etibarlı, vaxtında, davamlı, əlaqəli olması və onların regionlar və ölkələr üzrə nə dərəcədə müqayisə edilə bilməsi və istifadəçilər tərəfindən nə dərəcədə asanlıqla əldə edilə bilməsi vacibdir.

**11-ci PRİNSİP: AKTUALLIQ**
*Avropa statistikası istifadəçilərin tələbatlarını ödəməlidir.*

Göstəricilər:

- İstifadəçilərlə məsləhətləşmələrin aparılması, aktuallığın və hazırkı istifadəçilərin tələbatları haqqında mövcud statistik məlumatların praktiki faydasının yoxlanması, həmçinin onların gələcəkdə tələbatlarının və prioritetlərinin müəyyən edilməsi qaydaları fəaliyyət göstərir.
- Prioritet tələbatlar təmin edilir; bu, iş proqramında öz əksini tapır.
- İstifadəçilərin razılıqlarının səviyyəsini aydınlaşdırmaq üçün vaxtaşırı onlar arasında sorğu keçirilir.

**12-ci PRİNSİP: DƏQİQLİK VƏ ETİBARLILIQ**
*Avropa statistikası gerçəkliyi dəqiq və doğru əks etdirməlidir.*

Göstəricilər:
- İlkin məlumatlar, aralıq nəticələr və çıxış statistik məlumatlar qiymətləndirilir və düzgünlüyü yoxlanılır.
- Seçmənin xətaları və ondan asılı olmayan xətalar ASS-nin keyfiyyət meyarlarına uyğun olaraq təhlil edilir və sənədləşdirilərək mütəmadi olaraq qeydə alınır.
- Düzəlişlərin daima öyrənilməsi və təhlili aparılır, bunların nəticələrindən statistik proseslərin məlumatlandırılması üçün idarə daxilində istifadə edilir.

**13-cü PRİNSİP: VAXTLI-VAXTINDA OLMA VƏ TAM VAXTINDA YERİNƏ YETİRMƏ**
*Avropa statistikası lazımlı vaxtda və gecikdirilmədən yayılmalıdır.*

Göstəricilər:
- Nəşr etmələrin vaxtlı-vaxtında olması məlumatların yayılmasının ən yüksək Avropa və beynəlxalq standartlarına uyğundur.
- Avropa statistikasının məlumatlarının nəşr edilməsi müəyyən edilmiş gün, standart vaxtda yerinə yetirilir.
- Avropa statistikasının dövriliyi maksimal dərəcədə istifadəçilərin tələbatlarını nəzərə alır.
- Məlumatların buraxılış qrafikindən hər hansı kənarlaşma barəsində əvvəlcədən elan verilir, onun səbəbləri göstərilir, yeni buraxılışın vaxtı müəyyən edilir.
- Əgər faydalı olarsa, münasib keyfiyyətin ilkin nəticələrinin yayılmasına yol verilir.

**14-cü PRİNSİP: QARŞILIQLI ƏLAQƏ VƏ MÜQAYİSƏLİLİK**

*Avropa statistikası daxildə və vaxta görə qarşılıqlı əlaqəli olmalıdır, regionlar və ölkələr üzrə müqayisəli olmalıdır; müxtəlif mənbələrdən olan bir-biri ilə əlaqəli məlumatların uyğunlaşdırılması və eyni vaxtda istifadəsi mümkün olmalıdır.*

Göstəricilər:

- Statistik məlumatlar daxili əlaqəliliyə və ardıcıllığa malikdirlər (məsələn, onlarda hesabi və mühasibat oxşarlığı qorunur).
- Statistik məlumatlar əlaqəliliyə malikdirlər və yaxud, o qədər də böyük olmayan zaman aralığı çərçivəsində bir-biri ilə uzlaşdırıla bilinən olmalıdırlar.
- Statistik məlumatların işlənib hazırlanması müxtəlif müayinələr və mənbələrdə tətbiq edilən əhatəyə, təriflərə, vahidlərə və təsnifatlara aid olan vahid standartlar əsasında yerinə yetirilir.
- Müxtəlif sorğulardan və mənbələrdən olan statistik məlumatları müqayisə etmək və cəmləmək olar.
- Avropa və digər statistika sistemləri arasında vaxtaşırı mübadilə müxtəlif dövlətlər üzrə məlumatların müqayisəliliyini təmin edir; metodoloji tədqiqatlar Aİ üzv ölkələr və Avrostat arasında sıx əməkdaşlıq çərçivəsində aparılır.

## 15-ci PRİNSİP: ANLAŞIQLILIQ VƏ AYDINLIQ

*Avropa statistikası aydın və başa düşülən formada təqdim olunmalıdır, münasib və rahat üsullarla yayılmalıdır; onlara giriş və onlardan istifadə olunması hamı üçün eyni şərtlər çərçivəsində həll edilməlidir, məlumatlar metodoloji materiallar və izahlarla müşaiyət olunmalıdır.*

Göstəricilər:

- Statistik məlumatlar elə formada təqdim edilmişdir ki, onların düzgün şərhini və anlaşılan müqayisəsini asanlaşdırsın.
- Məlumatları yayma xidmətləri müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə edirlər və lazım olduqda isə məlumatlardan ənənəvi kağız formada istifadə edirlər.
- Əgər texniki cəhətdən yerinə yetirilməsi mümkündürsə, onların nəticələri açıqlanırsa, onda sifarişli tədqiqatlar həyata keçirilir.
- Tədqiqat məqsədləri üçün mikro məlumatlara girişə icazə verilir və bu, ciddi protokollara riayət etmək şərti ilə mümkündür.
- Metodoloji məlumatlar, onların nizamlanmış sistemlərinə uyğun olaraq sənədləşdirilir.

- İstifadəçilər statistik proseslərin metodoloji nöqteyi-nəzəri üzrə və statistik çıxış məlumatların keyfiyyətinin ASS keyfiyyət meyarlarına uyğunluğu haqqında müntəzəm olaraq məlumatlar əldə edirlər.

## AVROSTAT

## HAZIRKI SƏNƏDİN MƏTNİNDƏKİ TƏRİFLƏR (ANLAYIŞLAR):

Avropa statistikası, Şuranın (Aİ) 322/97 nömrəli 17 fevral 1997-ci il tarixli "İttifaqın Statistikası haqqında" Reqlmentinin tərifinə (anlayışına) uyğun olaraq, Aİ-nin Müqaviləsinin 285 (2) Maddəsinə müvafiq üzv ölkələrin statistika orqanları və Avropa İttifaqının statistika orqanı (Avrostat) tərəfindən işlənib hazırlanan və yayılan, İttifaqın statistik məlumatlarını göstərir.

Dövlət səviyyəsində statistik orqan Milli statistika idarələrini (MSİ) və Avropa statistikasının istehsalı və yayılmasına cavabdehlik daşıyan digər statistika təşkilatlarını, Birlik səviyyəsində isə Avrostatı əks etdirir.

Avropa statistika sistemi, mətn üzrə ASS, Avrostatı, Milli statistika idarələrini və Avropa statistikasının istehsalı və yayılmasını yerinə yetirən bütün üzv ölkələrin digər statistika təşkilatlarını özündə birləşdirən partnyorluq birliyini göstərir.